# Tallində akademik Zərifə Əliyevanın adını daşıyan universitet yaradılıb

**Yanvarın 18-də Estoniyanın paytaxtı Tallində fəaliyyət göstərən Türkdilli və Qafqaz xalqlarının Avropa Assosiasiyasının prezidenti professor Yaqub Yaqubovun jurnalistlərlə görüşü keçirildi. Estoniyadakı fəaliyyətləri ilə bağlı məlumat verən Y.Yaqubov rəhbərlik etdiyi assosiasiyanın 2002-ci ilin fevralında çərkəz, qırğız və Azərbaycan mədəniyyət dərnəklərinin təşəbbüsü ilə yaradıldığını bildirdi.**

Əsas məqsədi avropalıları türkdilli və Qafqaz xalqlarının mədəniyyətləri ilə yaxından tanış etməkdir. "Şərq ilə Qərb arasında mədəniyyət körpüsü yaradırıq" deyən assosiasiyanın prezidenti hazırda bu şəhərdə 17-dək cəmiyyətin birgə fəaliyyət göstərdiyini diqqətə çatdırdı. Assosiasiya dövlət tərəfindən rəsmi qeydiyyata alınıb. Burada tez-tez türkdilli və Qafqaz xalqlarının mədəniyyətlərinin Avropaya inteqrasiyası ilə bağlı dəyirmi masalar keçirilir. Assosiasiyada təmsil olunan Azərbaycan cəmiyyəti ilə bağlı məlumat verən Y.Yaqubov dedi ki, indiyə qədər bir çox şairlərimizin xatirə gecəsi keçirilmişdir. Bu tədbirlərdə Estoniyanın dövlət və mədəniyyət xadimləri yaxından iştirak etmişlər.

Y.Yaqubovla görüşdə məlum oldu ki, həmyerlimiz bu yaxınlarda Estoniya hökumətinin təşəbbüsü ilə təsis olunmuş Şərq Xalqları Mədəniyyəti Universitetinin rektoru təyin edilmişdir. Bu təhsil ocağına məşhur oftalmoloq, akademik Zərifə Əliyevanın adı verilmişdir.

Bu il fevralın sonlarında universitetin açılışı nəzərdə tutulub. Burada türk dünyasının bütün ölkələrindən, o cümlədən Azərbaycandan olan tələbələr təhsil alacaqlar. Bu təhsil ocağının rəhbərliyi xaricdən gələcək tələbələrə pulsuz vizanın verilməsini və onların yataqxanalarda yerləşdirilmələrini təmin edəcək.

Professor-müəllim heyətinə gəldikdə isə, Y.Yaqubov bildirdi ki, burada Estoniyanın elm aləminin korifeyləri dərs keçəcəklər. Bundan başqa, təhsil ocağında bəzi fənləri tədris etmək üçün türkdilli dövlətlərdən müəllimlər dəvət ediləcək. Universitetdə Şərq fəlsəfəsi, Şərq mədəniyyəti, sosial psixologiya, ekonomika və hüquq şöbələri fəaliyyət göstərəcək. Əvvəlcə dərslər rus dilində, sonra isə beynəlxalq statuslu universitet olduğuna görə ingilis dilində keçiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***